**COP29 çərçivəsində Yaşıl Zonadakı tədbirlərin açılışı olub**

Bakıda keçirilən COP29 konfransının Yaşıl Zonadakı tədbirlərinə start verilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə "The Extreme Hangout" təşkilatının nümayəndəsi Catherine Batley bildirib ki, Azərbaycanda COP29 üçün "Extreme Hangout" (EXH@COP29) Yaşıl Zonanın rəsmi hissəsidir və dünyaya iqlim böhranı ilə mübarizədə sadiq olduqlarını göstərmək istəyən təşkilatlar üçün bir sıra maraqlı tərəfdaşlıq imkanları təqdim edir.

"The Extreme Hangout" yeni tərəfdaşlar və məruzəçilərlə əməkdaşlıq quraraq gənc novatorlara real, davamlı həll yolları təklif etmək və qlobal iqlim gündəmini formalaşdırmaq üçün imkanlar yaratmağı məqsəd qoyur", - deyə təşkilatın nümayəndəsi vurğulayıb.

Qeyd edək ki, COP29 çərçivəsində "The Extreme Hangout" gənclərin rəhbərlik etdiyi iqlim fəaliyyətləri üçün dinamik mühit yaradacaq.

Noyabrın 11-dən 22-dək COP29 Yaşıl Zonada keçiriləcək seminar və sessiyalarda regionda su qıtlığı və bərpaolunan enerji sahəsində innovasiyalar kimi spesifik iqlim problemləri müzakirə ediləcək. Nəzərdən keçiriləcək əsas mövzulara təbiət və biomüxtəliflik, okean ekosisteminin qorunması, sərvət, fərd və cəmiyyət fəaliyyətinin gücləndirilməsi, dayanıqlı gələcək, narrativin dəyişdirilməsi və bəşəriyyətə sahib çıxılması daxildir.

**AZƏRTAC**
**2024, 11 noyabr**